

Əli Rza XƏLƏFLİ

# KARVAN GƏLİR YOLA BAX...

(yaddaş-poema)

Göz bağlamaz sinəndə, sözün gül-gül açılar,
Qəlbindən keçənləri anana deyə bilsən
Eşqindən yandığını dilin sözə gətirsə,
Kamınca sevinərsən, sonana deyə bilsən.

Təbiətin sərt üzü görünür qart daşlarda,
Qəlbinə yara vuran dostlarda, qardaşlarda...
Vəsiyyətdir son giley, yaşayar yaddaşlarda,
Dünyaya göz yumduğun son ana deyə bilsən.

Kamsız olar qaldısa sinəsində həvəsi,
Bir eşqin dəlisini saxlamaz can qəfəsi...
Min loğmana əvəzdi bir doğmanın nəfəsi,
Sən dərdini dərdinə yanana deyə bilsən.

Mənim könül bağımda dərdim çiçək, gül açıb,
Budağında Anadil bir gör necə dil açıb...
Eşqindən barınarsan istəyinə yol açıb,
Tər qönçənin üstünə qonana deyə bilsən.

Sözün məna donunu toxuyan bir gün gələr,
Açıb kədər tayını oxuyan bir gün gələr...
Açıq kitab qəlbimi oxuyan bir gün gələr,
Bəxtimi yada salıb anana deyə bilsən.

Gözdən tük çalan sayaq usta him-cimliyini,
Bir yaltağın min yerə əyilən simliyini;
"Qanmayım dədən yansın" deyənin kimliyini,
Bir biləndər tapılar, qanana deyə bilsən.

Söz üstündə Sabirin yanan qəlbi, qeyrəti,
Bir qaredə görünər güzgülənsə surəti.
Fizulidən betərdir Xələflinin heyrəti,
Bu heyrətin önündə donana deyə bilsən.

Xəyalən dilləşirəm, müsahib oluram mən,
Söz yığılır ruhuma, yazıya doluram mən.

Açılır xatirələr bağçada güllər kimi,
Hər xatirə canlanır şeyda bülbüllər kimi.

Açar olur qəlbimə incə söz, doğma duyğu,
İşıq düşür könlümə, gözümdən qaçır yuxu.

Keçmişlər cana gəlir, mən yazıya çəkdikcə,
Hər sözüm qana gəlir, canımdan can əkdikcə.

Ölməzləri yazıya gətirdikcə bilirəm,
Gələcəyin köksündə yer alır, dirilirəm.

Yenə Cavadoğludu söz evimin qonağı,
Sıxardı yoxsa məni köhnə Sədi qınağı.

Dostum Sədi dostudur, mən Sədi olmasam da,
Yükü bəlli sözümlə bir dəyər almasam da.

Mənim sözlü günümü, dostum hörmətdə tutur,
Hər misramı, sözümü, yüksək qiymətdə tutur.

Əvvəlcə şərh eyləyim Sədi qınağı nədir?
Xəyalımın evində sözün qonağı nədir?

Sədi özü yazır ki, bir vaxt başım qarışdı,
Uzaq düşdüm sözümdən, günüm, yaşım qarışdı.

İşrətə uydu könül, qələm düşdü əlimdən,
İlhamım küsüb getdi, söz qopmadı dilimdən.

Dostum gəlir xeyməmə, görür məstəm, yatmışam,
Sanki, dərya qoynunda bir gəmiyəm, batmışam.

Gülüstandan soğulan, peymanəm bulaşıqdır,
Tağlı bustan içində fikirlər dolaşıqdır.

Sədini tənbeh edir, dostu qəzəb göstərir,
Yaxasına əl atır, yaman əsəb göstərir.

Dostu qınaq üstünə Sədini çəkib deyir,
Sədi də bu töhmətdən xəcalət təri yeyir.

Yazmırsan yaratmırsan günlərini yeyirsən,
Hələ bir üstəlik də "mən şairəm" deyirsən.

Altmış yaşı ötmüsən, yuxudan oyanıb bax,
Əcəl səni gözləyir, qapıda dayanıb bax.

Yerə baxır, dostunun çəkinir gözlərindən,
Sədi dözmür ağlayır iynəli sözlərindən.

Yazı ömrün mənası - dostu belə söyləyir,
Yazmasan dostluq bitdi - deyə hədə eyləyir.

Beləliklə, qaytarır Sədini Gülüstana,
Bu gün dünya heyrandır "Bustan"a, "Gülüstan"a.

Mən də yazım tarixi, bir günüm adda qalsın,
Bir ömür macalında söz deyim yadda qalsın.

Çağırım fikirlərim zülmətdən üzə çıxsın,
Bir ömür dərəsindən diklənsin, düzə çıxsın.

Göstərim üfüq boyu, uzanıb gələn yolu,
Yolsuza acı-acı, tənədən gələn yolu.

Karvan gəlir yola bax... qatarlanıb dəvələr,
Zamanı aramağa sıralansın nəvələr.

Fikirdə düşüncədə, dağılmasa dumanlar,
Həqiqət işığında aydın olmaz gümanlar.

Gələcəyin düz yolu yaddaşdan, izdən keçir,
Biz zaman körpüsüyük, keçmişdə bizdən keçir.

* * *

Bu yerdə hekayətin yeni qolu başlayır,
Yeddi qardaş - oğuldan Məmməd yolu başlayır.

Əslində, olanları əsli-soyu itirməz,
Soydan, kökdən gələni soyu, boyu itirməz.

Məmməd də halallığı «Quran» kitab bilmişdi,
Uzun ömür yolunu açıq alın gəlmişdi.

Yüz iyirmi illik yol - üç Koroğlu yaşıdı,
Uzun ömür yaşında zaman yükü daşıdı.

Məmməd kişi deyirdi ləyaqətdir əmanət,
Qorusa hər kişiyə həqiqətdir zəmanət.

Allahın mükafatı - uzun ömür qisməti,
Aqillər uca tutar olsa kömür qisməti.

Qismətə yüyürmə heç - belə deyib babalar,
Qismətə gecikmə də - sözü öyüb babalar.

Varlı qızı Nabatın ayağı sayalıydı,
Sözü, hökmü kəsərdə - el içi həyalıydı.

Müdriklər yaxşı bilir - kişiyə öz halalı,
Uzun ömür qaynağı - saf niyyət, düz halalı.

Kişinin ocağına Allah xeyir yağırdı,
Mələklər bu sevdanı göydə öyür, yağırdı.

Üç oğul bəxş elədi Allah Nabat anaya,
Oğulların hər biri dünya, həyat anaya.

Nabat evin dirəyi, Məmməd onun damıydı,
Bu ər-arvad bir adam - Allahın adamıydı.

Oğullar böyüyürdü bəd zamandan xəbərsiz,
Qəfil əsən küləkdən, pis gümandan xəbərsiz.

İşığa çıx, əzizim, karvan gəlir, yola bax,
Neçə həsrət, ayrılıq - açılıbdır qola bax.

Bu yerdə bir hekayət canlanır yaddaşımda,
Misra-misra dolanır xəyalımda, başımda.

Deyirlər ki, bir karvan uzaq yoldan gəlirmiş,
Qoca Nər baş götürüb qeylü-qaldan gəlirmiş.

Yollar uzaq, dərd ağır, qısır bəxt qarıyırmış,
Ağır yükün altında dəvələr zarıyırmış.

Qaşqabaqlı buludlar ağlamırmış bu hala,
Bircə damla yağış da ayırmırmış bu yola.

Susuzluq bir tərəfdən qılıncını siyirir,
Qara qorxu, fəlakət cəhrəsini əyirir.

Həyat-ölüm vuruşur bu gedişin cəngində,
Ölüm gülüb sevinir dəvələrin dəngində.

Ağır yükün altında lök zarıdı, dayandı,
Ümidləri bir anda alışdı, oda yandı.

Gözləriylə oxşadı nərin baxışlarını,
Sonra da gözlərindən səpdi yağışlarını.

Çək karvanı, Qara Nər, saxlama yarı yolda,
Qoyma dayana karvan, dağıla varı yolda.

Karvan çəkdi yolunu gözlərinin ağına,
Dağ arası cığırla qalxdı ümid dağına.

Bir buğur da tuş gəldi pusquya bir keçiddə,
Həyat özü pusqudur gizlədib sir, keçiddə.

Neçə daylaq ov oldu yolların qarasında.
Xal oldu Qara Nərin qəlbinin yarasında.

Sıralar seyrəlsə də karvan yenə gedirdi,
Qara Nər hər çətində çıxıb önə gedirdi.

Olum - ölüm cəngində gümanlar, şəklər getdi,
Neçə mayalar getdi, bala köşəklər getdi.

Bu da sonuncu keçid - Qara Nər baxdı durdu,
Yerimədi taleyi, dayandı baxtı, durdu.

Karvandan nə qalmışdı - cavan nər, ağca maya,
Bəs edər Allah versə əldə cüzi sərmayə.

Qara Nər çökdü yerə, gözlərində kədər, qəm,
İllərin ağırısını danışırdı bu ələm.

Gözləriylə çağırdı ümid işıqlarını,
Bir nəslin, bir tayfanın olan, qalan varını.

Bu da zaman körpüsü özünüz keçin, gedin,
Taleyin dərdlərini su kimi için, gedin.

Bura qədər gətirdim, burdan belə yol sizin,
Gələcək ümidlərə açılacaq qol sizin.

Amma onu bilin ki, bələdçi ümid olar,
Ümidsiz bələdçi də yorulub yolda qalar.

Hardan gəlir köçümüz özünüz bilirsiniz,
Hərəniz bir tayfadan, nəsildən gəlirsiniz.

Qarşıdakı yolları bir olun, birgə gedin,
Gələcək zamanlara - inama, görkə gedin.

Düşünməyin körpüdən sonrakı yol hamardı,
Ayrılıb qovuşacaq yollar damar-damardı.

Biri yaxşı deyəcək, biri böhtan atacaq,
Yaxşını yaxşı deyər, daşı şeytan atacaq.

Halal zəhmət, təmkinlə qoruyun özünüzü,
Haram tikan olacaq, gözləyin gözünüzü.

Qara Nər danışırdı qəlbinin öz səsini,
Duyurdu varlığında ölümün nəfəsini.

Amma dərdsiz getməyin, əmanət alın məndən,
Bu dərdləri saxlayın gələcəyə dünəndən.

Bu da son vəsiyyəti... kəsildi son nəfəsi,
Can quşu uçub getdi, tərk elədi qəfəsi.

Cavan Nər, Ağca Maya keçdi zaman körpüsü,
Gələcəyi dumanlı, yolu güman körpüsü.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 8-ci səhifədə)*

Sabah nələr olacaq hələ günəş doğmayıb,
Buludlar ağlamayıb, hələ yağış yağmayıb.

Qanmazlar düşünərlər, ancaq şadlıq yaxşıdır,
İnanma acılıqdan, ancaq şirin yaxşıdır.

Dərdlər həyat, təcrübə, kədər səni öyrədən,
Həqiqətə güvənsən düz keçərsən əyridən.

Təzə güllər açılar qəmlərin çəmənində,
Güc gətirən ətir var dərdin yasəmənində.

Qara Nərə timsal bil aqilləri, mərdləri,
Ancaq onlar daşıyar ağrıları dərdləri.

Qələm-kağız üstündə karvan yolu, iz açar,
Neçə sirri, düyünü yazıldıqca söz açar.

Cavad, Kərəm, Salmanın tarixdən köçü gəlir,
Hər biri el qabağı - düşünmə üçü gəlir.

Söz olsa hər oğulun taleyi bir yazıdı,
Bizdən yeylər düz deyib tale özü yazıdı.

Sözü məndən soruşma, qələm bilər nə yazar,
Özü bilər; düzü düz, hədər, əfsanə yazar.

* * *

Alnabatda yaşayır, Məmməd baba nağılı,
Müdrik Məmməd kişinin düşüncəsi, ağılı.

Hər nağılın içində bir doğru var, canlıdır,
Hər canlının özü də ürəklidir, qanlıdır.

"Məmməd yolu" deyilən bir söz var Alnabatda,
Hərə bir cür ad ilə yaşayır bu həyatda.

Ad insanın şərəfi, yolunun çırağıdır,
Hər çırağın işığı, özü yol sorağıdır.

Bu hansı Məmməddir ki, yolu yaddaşda qalıb,
Sirr olub düşüncədə, hansı sirdaşda qalıb.

Çox Məmmədlər gedib bu dünyadan soraqsız,
Yaddaşlarda kitabdır, yollu Məmməd varaqsız.

Alnabatlı dostlardan soruşdum mənasını,
Bilən varmı bu sözün rəngini, hənasını.

Hər sözə rəng verməyin, el dilində yeri var,
Sözə həna çəkməyin ustası, şakəri var.

"Məmməd yolu" sözü də nədənsə xəbər verir,
İzə düşüb axtarsan, sözünə təpər verir.

Dedilər bir ocaqdan qorlanan oddur, közdür,
Ocaqqulu oğlunun adına bağlı sözdür.

Yaşayır zaman-zaman, sözdə, söhbətdə gəzir,
Yaxşı-yaman arası, hörmət, izzətdə gəzir.

Məmməd baba adının keşiyini çəkir söz,
Düşüncəyə, fikirə xeyir-niyyət əkir söz.

"Məmməd yolu" sözü də hörmətdə üzə çıxır,
Ata yolu özü də Məmməddə düzə çıxır.

Məmməd yaxşı bilirdi, bu yol, kimin yoludu,
Qoca dağdan çağlayan çayın hansı qoludu.

Yeddi qardaş arası özü ağıl kitabı,
Hər sözü, hər söhbəti şirin nağıl kitabı.

Ocaqqulu ocağı, hikmət dərsi keçmişdi,
Ədəb-ərkan bulağı... hikmət suyu içmişdi.

Göz açanda görmüşdü, atadan qalan yolu,
Görmüşdü necə keçir fikirdən ilan yolu.

İlan kimi fikirlər başda qıvrılıb yatır,
Külək, tufan başlasa torpaq sovrulub yatır.

Hər kəsin əməlində niyyəti bir ilandır,
Niyyəti ilanlığın sonunda nə qalandır.

Kənddə mərəkə yeri "aralıq" adlanırdı,
Aralıqda söz-söhbət qızışar, dadlanardı.

Axşam üstü dikdirə çıxmışdı Məmməd kişi,
Baxırdı kənd üstünə belə idi vərdişi.

Aralıdan görür ki, aralıqda dava var,
Hələ dava yoxsa da, bir davalıq şava var.

Bilir indi ilanlar fısıldayır gözlərdən,
Niyyətlər ocaq çatır tənə dolu sözlərdən.

Yeyin-yeyin yeriyir tez yetişsin oraya,
Kəssin sözü-söhbəti, özü girsin araya.

Beləcə Məmməd baba haqqa söykək yeriyir,
Yerişində inam var, sanma hürkək yeriyir.

Ağız deyəni qulaq eşitmir mərəkədə,
Hərə bir simə vurur sözaltı hərəkədə

Belə getsə qızışıb daşacaq kinli başlar,
Hörmət-izzət həddini aşacaq kinli başlar.

Daş tullanıb girəcək birinin sağ əlinə,
Qəzadan çəkiləcək daş tutan dağ əlinə.

Kürkü çiynində gəlir Məmməd baba ləngərlə,
Deyərsən qoşun gəlir bir alınmaz səngərlə.

Ucaboy, enlikürək, qırğıgöz kişi gəlir,
Hökmündə qətiyyəti, gücü, gərdişi gəlir.

Dedilər, bir dayanın, kişi gəlib yetişsin,
Dilindən sinsaf gəlsin, bu çatlar da bitişsin.

Məmməd kişi dinləyir, tərəflər dil-dil ötür,
Çətindir kimə yön tut , kimin yükünü götür.

Yaxşı adət-ənənə eli içdən saxlayar,
Eldən ayrı düşəni yolu köçdən saxlayar.

O zamandan dirəşən, yersiz inad göstərən,
Hər kəsə deyirlər ki, yol qoyub bizə ərən.

O yolu qorumasaq, xeyir-bərəkət qaçar,
Haramlıq ayaq alar, halallıq göyə uçar.

Məmməd baba deyərmiş bir insaf yolu saxla,
Qırıb-tökmə pöhrəni, kölgəlik kolu saxla.

Məmməd kişi dinəndə söz ovxar götürərmiş,
Kəsəri nəzərindən hər kəsə ötürərmiş.

Deyərmiş sözünü de, sözün sayılan yerdə,
Çəkinmə qabağa dur, özün sayılan yerdə.

Özü yaxşı bilirdi kənd içində yerini,
Sözündə unutmazdı irəlini, gerini.

Gün bu gün deyil bala, bu günün sabahı var,
İtin yiyəsi varsa, qurdun da Allahı var.

Bu dünyada hər kəsin dəyirmanı dən çəkir,
Allahın nizamı var, tərəzini tən çəkir.

Nizamları qorumaq bizim əməl yolumuz,
Adımız, sanımızdır düzgün təməl yolumuz.

Dinləyib tərəfləri, düyünü görür kişi,
Fikrində, xəyalında hökmünü hörür kişi.

Haqlı-haqsız adına ayırır, ağ-qaranı,
Məlhəmi düzgün çəksən sağaldarsan yaranı.

Bir az yumşaq, təmkinlə, bir az da sərt danışar,
Sözünü çəkib üzə axır ki, pərt danışar.

Ay oğul, bağlamısan bütün bəndi-bərəni,
Bəs bu yazıq haradan, necə keçsin dərəni.

Hər insanın əməli, öz adına bağlıdır,
Başqa cür fərq eləməz, Aranlıdır-dağlıdır.

Sən də yola gəl görək, bağlama ilan yolu,
İlan yolu bağlansa, qalanı yalan yolu.

Haqsızlıq olan yerdə, su axıb, ot da bitməz,
Allahın dərgahına səs batar, ad da yetməz.

Allahın qəzəbinə tuş gələr, baxtın bir gün,
Bilməzsən hardan uçdu, qurulu taxtın bir gün.

Gücsüzü itələsən, dayağı Allah olar,
Zoruna güvənənin nəsibi min ah olar.

Yol kəsənin qənimi Allahın özüdür, bil,
Yol kəsənin qarğışı el ağzı, sözüdür, bil.

Məmməd kişi sözünə yol ilə başlayarmış,
Yol ilə də qurtarıb, yolsuzu daşlayarmış.

Deyərmiş ki, birisi düşsə yolun ağına,
Axır bir gün çıxacaq öz yolunun dağına .

Yolun dağı nədir ki, soruşanda birisi,
Deyərdi məqsəd, məram - budur sözün gerisi.

* * *

Bir xəyal kölgəsi var, sözümün üzərində,
İşığa üz tuturam fikrimin gəzərində.

Sözümün arasını hansı daşla çəkim mən,
Düşüncə toxumunu, harda şuma əkim mən.

Əkdiyimi göyərən, pərvəriş görə bilsəm,
Sevinərəm sözümün barını dərə bilsəm.

Gözlü korlar görməzlər, söz gül açıb gülsə də,
Baxıb səssiz ötərlər, söz yeriyib gəlsə də.

Baxmadım bu dünyanın amansız gərdişinə,
Vermədim taleyimi zamanın ac dişinə.

Baş çıxardım fəhm ilə dəmirbaşlar içində,
Söz bitirdim şövq ilə başı daşlar içində.

İzlədim karvan-karvan nəsilləri yol boyu,
Sevgimlə qucaqladım əsilləri qol boyu.

Sözümü bitirməyə güvənc yeri axtardım,
Ustadlara üz tutdum, söz zərgəri axtardım.

"Çəkə bilsəydim əgər..." bu karvanın yükünü,
Görərdi qələm əhli bu dərdlərin lökünü.

Ustad Ənvər Nəzərli xəyalımdan boylanır,
Nurlu bir təbəssümlə işıqlanır, aylanır.

Gözlərindən deyir ki, sən yaz "İsa dəmini",
Sözünlə yada saldın, bəlkə, Ənvər əmini.

Təxmis oldu bir qəzəl, ötdü dil-dil misralar,
Xələflinin dilində sözü bülbül misralar.

Dəyişdikcə səhnələr həyatın öz rəngində,
Özümü də görürəm sözümün ahəngində.

Dağlar başı qar olur, əriməsə tar olur,
Od yanır sinəm üstə, söz dilimdən car olur.

Karvan gəlir yola bax... yol üstündə kola bax,
Qəm qarışıq sevincə, bir açılmış qola bax...

Yığam öz varlığıma bütün dərdlərin cəmini,
Göstərəm aşiqlərə dərdsiz bir aləm çəmini;
Könlüm gülə, sevinə açam sözün qədəmini,
«Çəkə bilsəydim əgər mən bütün aləm qəmini,
Qəm əlindən qurtarardım bu bəşər aləmini».

Pərvanələr cəm olsun, yanmağa gəlsin közümə,
Yandıqca ağzımda dilim gətirsin can sözümə
Açılsın hər bir dərdin qəm qapısı öz üzümə
«İstərəm dərdlilərin göz yaşı dolsun gözümə
Qurudum ahım odunda bu kədər şəbnəmini».

Harda ki bir aşiqin sevgisi çəkilsə dara,
Hansı bir sevligilinin bəxtinə yazılsa qara;
Qıyaram öz canımı da baxmaram yoxa, vara.
«Hər kimin sinəsinə hicr oxu vurmuşsa yara,
Çəkərəm yarasına öz yaramın məlhəmini».

Dönərəm bir bülbülə sevda bağında ötərəm,
Tanrının dərgahına çağlar eşqimlə yetərəm;
Bağlanıb həqiqətin işığına yol gedərəm.
«Cümlə nakam ölən aşiqləri ehya edərəm,
Mənə bəxş etsə ilham əgər İsa dəmini».

Allahın əzabı da təhridir aşiqlər üçün,
Yandıra eşq oduna, qəhridir aşiqlər üçün;
Hər iki aləm də dəhridir aşiqlər üçün.
«Eşqsiz ömür bəla bəhridir aşiqlər üçün
Çək səfa sahilinə bəhri bəladan gəmini».

Əvəz olmaz sözümə, söz alıb zər qaytaralar,
Heç olmaz gül gəzə, sonra da tər qaytaralar;
Görmüsənmi tac alıb, salamat sər qaytaralar.
«Verərəm yerdə qalan ömrümü, gər qaytarlar,
Aşinalarla keçən ömrümün bir dəmini».

Qayıdar ilham pərim zülmünü də az eləyər,
Doğular göy üzündən gecəmi bəyaz eləyər
Xələfli xəzanını döndərib bir yaz eləyər
«Ənvərin könlü fərəhdən yenə pərvaz eləyər,
Tapa bilsə gər aləmdə öz könül həmdəmini».